# Avropa Birliyinə üzv ölkələrdən İran İslam Respublikasının bütün səfirləri geri qayıdıb

Iran International - Bazar ertəsi günü Tehran Avropa Birliyinin İslam İnqilabı Keşikçiləri Korpusunu "terrorçu" qrup kimi təsnif etmək qərarına etirazını bildirmək üçün Avropa Birliyinə üzv ölkələrin İrandakı bütün səfirlərini Xarici İşlər Nazirliyinə çağırdığını açıqladı.

Avropa Birliyi ötən həftə İslam İnqilabı Keşikçiləri Korpusunu minlərlə insanın ölümünə və on minlərlə insanın həbsinə səbəb olan ölkə miqyasında baş verən etirazların qanlı şəkildə yatırılmasındakı roluna görə "terrorçu" qrup kimi tanıyıb.

ABŞ və Kanada əvvəllər İnqilab Keşikçilərini terror təşkilatı kimi təsnif etmişdi.

İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəgainin sözlərinə görə, Aİ səfirlərinin çağırılması bazar günü başlayıb və bazar ertəsinə qədər davam edib.

Cənab Bəqai bu məsələ ilə bağlı deyib: "Biz bir sıra tədbirləri nəzərdən keçiririk və müxtəlif variantlar hazırlanıb qərar qəbuletmə orqanları tərəfindən qərar qəbul edilməsi üçün göndərilib. Yaxın günlərdə Avropa İttifaqının bu əsassız, qanunsuz və çox səhv hərəkəti ilə bağlı İranın əks tədbirləri barədə qərar qəbul ediləcək."

Bazar günü Tehran Avropa Birliyinin qərarına cavab olaraq simvolik bir addım ataraq bütün Aİ hərbi qüvvələrini "terrorçu" təşkilatlar elan etdi.



**Səməd Bayramzadə**